# Milli mətbuatın 150 illiyi münasibətilə tədbir

**Azərbaycan milli mətbuatının yaranmasının 150 illiyi münasibətilə iyulun 12-də Bakıda Four Seasons hotelində təntənəli tədbir keçirilib.**

Tədbir millət vəkili Səbinə Salmanovanın təşəbbüsü ilə Magen David Azərbaycan - İnsan Hüquqları Müdafiəsi və Xeyriyyə Cəmiyyəti tərəfindən təşkil olunub. Tədbirdə millət vəkilləri, media rəhbərləri, saytların baş redaktorları, jurnalistlər və ictimaiyyət nümayəndələri iştirak ediblər. Ümummilli Lider Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət Himninin səsləndirilməsi ilə tədbir açıq elan olunub.

Milli Məclisin deputatı, Azərbaycan-İsrail Parlamentlərarası işçi qrupunun rəhbəri, "Magen David" Azərbaycan Cəmiyyətinin fəxri sədri Anatoliy Rafailov çıxışında dövlətin mətbuatın inkişafına hər zaman xüsusi diqqət yetirdiyini bildirib. Qeyd olunub ki, müasir Azərbaycan mediası operativliyi, dəqiqliyi və qərəzsizliyi ilə seçilir, dövlətçilik ənənələrinin möhkəmlənməsində mühüm rol oynayır. Parlamentari media nümayəndələrinin peşəkarlığını, xüsusilə Vətən müharibəsi və pandemiya dövründə cəmiyyətin düzgün məlumatlandırılmasındakı əvəzsiz xidmətlərini yüksək qiymətləndirib. "Magen David" Azərbaycan Cəmiyyətinin və Ümum-İsrail Qafqaz Yəhudiləri Assosiasiyasının Azərbaycan nümayəndəliyinin sədri David Seliverstov çıxışında bildirib ki, "Əkinçi" ilə əsası qoyulan maarifçilik ideyaları bu gün də yaşayır. O, müasir Azərbaycan mediasının informasiya müharibəsində həqiqətlərin dünyaya çatdırılmasında mühüm rol oynadığını və media nümayəndələrinin qərəzsiz, operativ fəaliyyəti ilə daim seçildiyini qeyd edib.



Milli Məclisin deputatı Səbinə Salmanova çıxışında mətbuatın cəmiyyətin maarifləndirilməsi və ictimai rəyin formalaşdırılmasındakı rolunu xüsusi vurğulayıb. Bildirib ki, jurnalistlər bu gün də milli maraqların qorunmasında ön sıradadırlar və onların peşəkarlığı dövlət tərəfindən daim yüksək qiymətləndirilir: "Azərbaycan mətbuatı "Əkinçi" qəzetindən başlayaraq indiyədək mürəkkəb, çətin və şərəfli yol keçib. Mətbuatımız xalqımızın maariflənməsində, ana dilimizin və milli-mənəvi dəyərlərimizin qorunmasında, mədəniyyətimizin, incəsənətimizin təbliğində və inkişafında önəmli rol oynayır".

Daha sonra iştirakçılar çıxışlarında bildiriblər ki, ölkəmizdə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində media üçün əlverişli mühit yaradılıb, peşəkar jurnalist ordusu formalaşıb və milli mətbuatımız həm dövlətin, həm də cəmiyyətin inkişafında əvəzsiz rol oynayır. Rəsmi hissədən sonra tədbir iştirakçıları üçün maraqlı bədii proqram təqdim olunub.

**N.ABDALOV,**
**"Respublika".**

Respublika .- 2025.- 13 iyul (№ 142).- S.11.